# Xocalı şəhidlərinin ruhu artıq rahatdır

**"Mayın 28-də - Müstəqillik Günündə Xocalı şəhərinə ilk qayıdan sakinlərə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tərəfindən evlərin açarlarının təqdim olunması, sakinlərlə səmimi görüş keçirilməsi tarixi hadisədir. Bu o deməkdir ki, Böyük qayıdışın Xocalı mərhələsi başlayır".**



Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Sevinc Fətəliyeva deyib. Deputat bildirib ki, Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam bərpa olunması müasir tariximizin ən mühüm hadisəsidir: "2020-ci ildə baş vermiş 44 günlük Vətən müharibəsində Qarabağ və Şərqi Zəngəzur erməni işğalından azad olundu. Ötən ilin sentyabrında isə Qarabağ erməni separatçılarından tam təmizləndi və oktyabrın 15-də Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin Xankəndidə, Xocalıda, Ağdərədə, Xocavənddə və Əsgəranda üçrəngli bayrağımızı ucaltmasını sonsuz iftixar və qürur hissi ilə izlədik. Bu torpaqlarda üçrəngli bayrağımızın dalğalanması tariximizin şanlı səhifəsidir".

Deputat əlavə edib ki, ermənilərin 1992-ci il fevralın 25-dən 26-na keçən gecədə Xocalıda azərbaycanlılara qarşı soyqırımı törətdikləri bütün dünyaya məlumdur: "Şəhər bir neçə saatın içində tamam məhv edildi, uşaqlara, qadınlara, qocalara belə aman verilmədi. Xocalı yarası hər bir azərbaycanlının qəlbini göynədirdi, qaysaq bağlamırdı. Prezident İlham Əliyev ötən ilin oktyabrın 15-də Xocalıda da üçrəngli bayrağımızı ucaltdıqdan və bu il mayın 28-də bu şəhərə qayıdışın başlanmasından sonra soyqırımı qurbanlarının, bütün şəhidlərimizin ruhları rahatlıq tapdı. İlk dəfə olaraq bu soyqırımının 32-ci ildönümü məhz Xocalı şəhərində qeyd edildi, şəhidlər ehtiramla anıldı. Fevralın 26-da Azərbaycan Prezidenti İlham Əliyev Xocalı şəhərində Xocalı Soyqırımı Memorialının təməlini qoyub, rayon ictimaiyyətinin nümayəndələri ilə görüşmüşdü. Xocalı şəhərində bərpa-quruculuq işlərinə start verildikdən cəmi bir neçə ay sonra keçmiş məcburi köçkünlərin qayıdışına start verilməsi təbii ki, qürur doğurur. Bu gün doğma Xocalıya qayıdan sakinlərin sevincinin hədd-hüdudu yoxdur. Soyqırımına məruz qalmış Xocalıya 32 ildən sonra həyatın qayıtması xalqımızda xoş hisslər yaradır".

Sevinc Fətəliyevanın sözlərinə görə, insanların doğma yurdlarına qayıdışı ilə həmin torpaqlar yenidən canlanır. Xocalıya ilk köç edən sakinlərlə görüşü zamanı Prezident İlham Əliyev dedi ki, bundan sonra Ermənistan heç vaxt Azərbaycana qarşı hər hansı bir hərbi təxribat törətməyə cəhd etməyəcək. "Halbuki Ermənistanda revanşistlər çoxdur. Biz son hadisələri də izləyirik, görürük ki, bizə qarşı yenidən ərazi iddiaları irəli sürmək cəhdləri var. Ona görə biz hər an hazır olmalıyıq. Əlbəttə ki, ilk növbədə, ordumuzu daha da gücləndirməliyik və bunu edirik". Dövlətimizin başçısı vurğuladı ki, Ermənistan Xocalıda törətdiyi cinayətləri etiraf etməli və bizdən üzr istəməlidir. Eyni zamanda bu hərbi cinayətini tanımalıdır.

Müsahibimiz, həmçinin qeyd edib ki, müharibənin başa çatmasından az vaxt ötməsinə baxmayaraq, işğaldan azad edilmiş ərazilərin məskunlaşdırılmasına start verilməsi Azərbaycanın gücünün və qətiyyətinin göstəricisidir: "Bu il 20 min keçmiş məcburi köçkünün qayıdışı təmin olunmalıdır: "Artıq 28-29 may tarixlərində 44 ailənin Xocalı şəhərinə qayıdışı təmin olunub. Rəsmi məlumatlara əsasən, Xocalı şəhərinin yenidən qurulması üzrə birinci mərhələ 167 hektar və 18 hektar olmaqla iki hissədən ibarətdir. Birinci mərhələdə 167 hektar ərazidə 140 fərdi ev, 48 kottec tipli ev və 9 binadan ibarət 110 evdə tikinti, təmir-bərpa və abadlıq işləri görülür. Həmçinin 18 hektar ərazidə yerləşən fin tipli 92 evdə isə tikinti, təmir-bərpa və abadlıq işləri həyata keçirilir. Bunlardan əlavə, Xocalı şəhərinin girişində - çay kənarında bulvarın salınması işləri davam edir. Xocalı şəhərində orta təhsil müəssisəsi və uşaq bağçası da inşa olunub".

Deputat yekunda vurğulayıb ki, doğma Qarabağ torpağının əzəli sakinləri öz yurdlarına geri dönürlər: "Prezidentin rəhbərliyi ilə işğaldan azad olunmuş bütün ərazilərimiz ən müasir səviyyədə yenidən qurulur. Şübhəsizdir ki, bu torpaqlar dünyanın ən gözəl guşələrindən birinə çevriləcək".

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*

Azərbaycan.- 2024.- 31 may, № 113.- S.15.